***İBTİDAİ SİNİFLƏRDƏ TƏHSİL VƏ TƏRBİYƏ***
***ОБРАЗОВАНИЕ И ВОСПИТАНИЕ В НАЧАЛЬНЫХ КЛАССАХ***
***EDUCATION AND UPBRINGING IN PRIMARY CLASSES***

*UOT 372.3/.4*

# İBTİDAİ SİNİF ŞAGİRDLƏRİNİN XARAKTERİNİN FORMALAŞMASINA MƏKTƏB MÜHİTİNİN TƏSİRİ

**Məsmə Çingiz qızı Əsgərova**
*Bakı Qızlar Universitetinin magistrantı,*
**ORCİD:** 0009-0009-7314-368X
**E-mail:** askerovruslan978@gmail.com

***Açar sözlər:*** *ailə, məktəb, davranış, mühit, şəxsiyyətin formalaşması, fərd, cəmiyyət, kollektiv.*
***Ключевые слова:*** *семья, школа, поведение, среда, формирование личности, индивид, общество, коллектив*
***Key words:*** *family, school, behavior, environment, personality development individual, society, collective*

Təhsil, həm fərdi, həm də milli və dövlət səviyyəsində bir-birindən ayrıla bilməyən mühüm bir prosesdir. Fərdin, millətin və dövlətin keyfiyyəti birbaşa ümumi təhsil prosesinin keyfiyyəti ilə müəyyən olunur. Təhsil insanları mövcud vəziyyətlərindən olması lazım olan səviyyəyə çatdıran, onların potensialını, qabiliyyətlərini və xarakter xüsusiyyətlərini formalaşdıran bir prosesdir. Bu proses uşaqların yaradıcılıq, zövq, təşəbbüs və əməksevərlik kimi dəyərlərə əsaslanan davranış dəyişiklikləri ilə müşayiət olunur.

Qloballaşma dövründə uşaqların davranışlarında baş verən neqativ dəyişikliklər, əxlaq normalarının bulanıqlaşması və məktəb yaşlı uşaqlar arasında cinayət hallarının artması təhsil prosesində xarakter tərbiyəsinin zəruriliyini ön plana çıxarır. Belə bir mühitdə şagird xarakterinin formalaşması üçün həm formal təhsil, həm də dərsdənkənar fəaliyyətlər sistemli və şüurlu şəkildə tərtib olunmalıdır. Bu yanaşma təlim prosesində yalnız akademik biliklərin deyil, həm də yaxşı davranış və münasibətlərin inkişafını təmin edir [1].

Xarakter təhsili məktəbdaxili və məktəbdənkənar fəaliyyətlər vasitəsilə həyata keçirilə bilər. Məktəblər, tədris və tərbiyə prosesinin baş verdiyi əsas məkan olmaqla yanaşı, uşaqlarda davamlı şəkildə müsbət vərdişlərin və davranışların formalaşmasında mühüm rol oynayır. Formal təhsilin tərkibindəki bu müsbət vərdişlər şagirdlərin xarakterini və potensialını inkişaf etdirir, onları əxlaqlı, yaradıcı, müstəqil, demokratik və məsuliyyətli vətəndaşlar kimi formalaşdırır [2]. Təhsilin keyfiyyətinin artırılması, bu prosesdə iştirak edən bütün tərəflərin, xüsusilə də ibtidai təhsil səviyyəsində çalışan müəllimlərin əsas vəzifəsidir. İbtidai sinif müəllimlər, keyfiyyətli insan resurslarının yaradılmasında strateji bir rol oynayır. Onlar, şagirdlərin qloballaşma dövründə sürətlə inkişaf edən texnologiyalarla ayaqlaşa bilməsi və beynəlxalq arenada rəqabət apara bilməsi üçün mühüm baza formalaşdırırlar.

İbtidai məktəb dövrü, insan həyatında 6-7 yaşdan 10-11 yaşa qədər olan və fərdi sosiallaş-

manın keyfiyyətcə yeni mərhələsini təmsil edən mühüm inkişaf mərhələsidir. Bu dövr məktəbəqədər təhsildən fərqli olaraq, şagirdin sosial sistemin aktiv iştirakçısına çevrildiyi və ailə nəzarətindən tədricən uzaqlaşdığı bir keçid mərhələsi ilə xarakterizə olunur. Məhz bu mərhələdə fərd, gələcək həyatına dərin təsir göstərə biləcək sosial rolları mənimsəməyə başlayır. Şagirdin bu rollara uyğunlaşması, zəruri sosial vəzifələrin öhdəsindən gəlməsi və ətraf mühitin sosial gözləntilərinə cavab verməsi isə birmənalı olaraq yüksək qiymətləndirilmir [3].

Birinci sinif, yalnız şagirdin intellektual bacarıqlarını deyil, eyni zamanda şəxsiyyət xüsusiyyətlərini də formalaşdıran kompleks bir mərhələdir. Bu yaş aralığında fərdlərdə məcburi gündəlik rejimə uyğunlaşma, məsələn, erkən oyanmaq, dərslərə hazırlıq və ev tapşırıqlarını yerinə yetirmək kimi yeni vərdişlər yaranır. Bu dəyişikliklər onların davranışlarını strukturlaşdırmaqla yanaşı, xarakterlərində sabitlik və məsuliyyət hisslərinin təməlini qoyur. Əslində, təhsil fəaliyyətləri bu mərhələdə uşağın psixi inkişafının əsas meyarını təşkil edir. Bu fəaliyyətlər çərçivəsində şagirdlərdə koqnitiv və emosional inkişafın mühüm aspektləri, eləcə də gələcəkdə formalaşacaq şəxsiyyət nüvəsi üçün baza rolunu oynayan yeni formasiyalar meydana çıxır [4]. Bu mərhələdə sosial münasibətlərin xarakteri tədricən mürəkkəbləşir və daha çox sistematik xüsusiyyət qazanır. Uşağın ailə üzvləri və dostları ilə qarşılıqlı əlaqələri, həmçinin müəllimlər və sinif yoldaşları ilə münasibətləri şəxsiyyət inkişafına mühüm təsir göstərir. İbtidai məktəb dövrünün fərqli xüsusiyyətləri aşağıdakı yeni formalaşmalarla xarakterizə olunur:

- Davranışların və fəaliyyətlərin sərbəst tənzimlənməsinə əsaslanan yüksək səviyyəli intellektual və iradi keyfiyyətlərin inkişafı;
- Düşüncə proseslərinin təkmilləşdirilməsi, daxili fəaliyyətin sistematik planlaşdırılması və reflektiv təhlilin formalaşması;
- Dünyaya fərqli, analitik və məqsədyönlü baxışın inkişaf etdirilməsi;
- Həmyaşıd qrupları ilə sosial oriyentasiya və adaptasiya bacarıqlarının əldə edilməsi [5].

Şagirdlər üçün əsas sosial qaydalar və vəzifələr hələ də böyüklər, xüsusən də valideynlər və müəllimlər tərəfindən müəyyən edilir. Onlar uşaqlara nəyin, nə zaman və necə edilməli olduğunu izah edən davranış modellərini təqdim edirlər. Bununla belə, sinif daxilində yaranan şəxsi münasibətlər tədricən özünəməxsus sistem halını alır. Əvvəlcə rəğbət, dostluq və qarşılıqlı yardımla başlayan bu münasibətlər, sonradan müstəqillik və özünəinam kimi daha mürəkkəb xüsusiyyətlər qazanır. Emosional əlaqələrin dominantlığı isə uşaqların sosial adaptasiyasını daha çevik və məqsədyönlü edir [5].

Eyni zamanda, məktəb mühiti şagirdin şəxsiyyətinin əsas inkişaf mərkəzi kimi çıxış edir. Şagirdlər bu mühitdə həm akademik, həm də sosial fəaliyyətlər vasitəsilə özlərinə olan tələbləri təkmilləşdirir, həmyaşıdları ilə uzunmüddətli münasibətlərin konturlarını formalaşdırır və sosial baxımdan vacib dəyərləri mənimsəyirlər. Uzun müddət davam edən bu proses (9-11 il) şagirdlərin həm intellektual, həm də emosional cəhətdən möhkəmlənməsini təmin edir. Belə bir mühitdə, şagirdlər özlərini həm müəllimlər, həm də sinif yoldaşları tərəfindən qəbul olunmuş və nümunəvi şəxsiyyət kimi təsdiq etmək istəyirlər. Bu, onları daha yaxşı nəticələr əldə etməyə, uğursuzluqları cəsarətlə qarşılamağa və sosial normaları mənimsəməyə sövq edir [6].

Beləliklə, ibtidai məktəb dövrü fərdin sosial və intellektual inkişafının ilkin mərhələsini təşkil edir. Məktəb mühitində əldə edilən təcrübələr, sosial bacarıqlar və intellektual qabiliyyətlər, şagirdin gələcəkdə formalaşacaq şəxsiyyətinin baza elementlərini təşkil edir və onun cəmiyyətin funksional üzvünə çevrilməsini təmin edir.

**İbtidai sinif şagirdlərində şəxsiyyətin formalaşmasının izahı.**

İbtidai təhsil mərhələsində şagirdlərin şəxsiyyətinin formalaşmasında həmyaşıdları ilə ünsiyyət, böyüklərlə münasibət və sosial mühitin təsiri mühüm rol oynayır. Bu yaş dövründə şagirdlərin əksəriyyəti həmyaşıdları ilə ünsiyyətə daha çox önəm verirlər. Lakin, valideynlər və müəllimlər şagirdlər üçün hələ də mühüm sosial dəstək mənbəyi olaraq qalır; onlar çətin vəziyyətlərdə yardım edən, şübhələri aradan qaldıran və emosional təhlükəsizlik təmin edən əsas şəxsiyyətlərdir [7].

Bu mərhələdə şagirdlərin davranış və xarakterlərində nəzərəçarpacaq dəyişikliklər baş verir. Onlarda bəhanə gətirmə, iddialılıq və şıltaqlıq kimi davranışlar müşahidə oluna bilər. Həmyaşıdları ilə qarşılıqlı əlaqə ibtidai sinif şagirdlərinin mənəvi tərbiyəsinin ən mühüm aspektlərindən biridir. Bu qarşılıqlı əlaqə onların öz imkanlarını və digər insanların dəyərlərini qiymətləndirmə bacarığını inkişaf etdirir. Əvvəlcə şagirdlər həmyaşıdlarını xarici görünüşlərinə görə qiymətləndirsələr də (məsələn, gözəl geyim), daha sonra onların mənəvi keyfiyyətlərini və bilik bacarıqlarını dərk etməyə başlayırlar. Bu proses zamanı yaranan dostluq münasibətləri şagirdlərə başqalarını anlamağı və sevməyi öyrədir, qarşılıqlı yardım, qayğı və həssaslıq kimi vacib xüsusiyyətlərin inkişafına şərait yaradır [8].

Məktəb mühitinin şagirdin xarakter formalaşmasına təsiri xüsusi diqqətə layiqdir, məktəblər təkcə bilik ötürən qurumlar deyil, eyni zamanda şagirdlərin davranışlarını inkişaf etdirən mühüm sosial mühitdir. Məktəb mədəniyyəti, sağlam ətraf mühit, gündəlik davranış nümunələri və mənəvi dəyərlərin aşılanması kimi amillər şagirdlərin xarakter inkişafına əhəmiyyətli təsir göstərir.

Tədqiqatlar göstərir ki, məktəb mühiti şagirdlərin yalnız akademik inkişafına deyil, həm də onların şəxsiyyətlərinin formalaşmasına təsir edir. Buna görə də təhsilin təşkili elə bir səviyyədə olmalıdır ki, həm şagirdlərin inkişafını təmin etsin, həm də onların gələcək həyatlarında müsbət davranış nümunələrini davam etdirə biləcək yaxşı xarakterli fərdlər kimi formalaşmasına töhfə versin.

Bu prosesdə valideynlərin və müəllimlərin rolu mühüm əhəmiyyət daşıyır. Onlar fərdlərin hərtərəfli inkişafını təmin etməli, yalnız bilik və bacarıqlarla deyil, eyni zamanda mühitə uyğun davranış nümunələri ilə də təmin etməlidirlər. Yaxşı xarakterin aşılanması isə, şagirdlərin şəxsi inkişaflarında və cəmiyyət qarşısında məsuliyyətli vətəndaşlar kimi formalaşmasında əhəmiyyətli rol oynayır [9].

**Şagirdlər və valideynlər arasında tədqiqatın aparılması.**

Tədqiqat 8 şagird və 12 valideyn arasında aparılmışdır.

Bu tədqiqatın əsas məqsədi uşaqlar və valideynlər arasındakı qarşılıqlı əlaqələrin psixoloji və emosional aspektlərini araşdırmaq, valideynlərin uşaqların xarakterinin formalaşmasında oynadığı rolun əhəmiyyətini müəyyən etməkdir. Valideyn-uşaq münasibətlərinin incəliklərini öyrənmək, onların emosional rifahı və şəxsiyyət inkişafı baxımından valideyn təsirinin xüsusi xüsusiyyətlərini anlamağa imkan yaradır.

Tədqiqat problemlərini həll etdiyimiz üsulları nəzərdən keçirək:

1. Uşaqların ailə mühitindəki emosional və psixoloji vəziyyətlərini qiymətləndirmək üçün kompleks tədqiqat metodları tətbiq edilmişdir. Əsas metodlardan biri "Ailə rəsmi" testi olmuşdur. Bu texnika şagirdlərin valideynləri ilə şəxsiyyətlərarası münasibətlərini, ailə daxilindəki emosional iqlimi və ailə üzvləri arasındakı dinamikaları təhlil etməyə imkan verir.

• Təsəvvür edin ki, bütün ailə ziyarətə gedir, amma sizdən biriniz xəstədir və kimsə onunla evdə qalmalıdır. Sizcə kim qalacaq?

— Bu sual ailə üzvləri arasında emosional yaxınlıq və ailə içindəki dəstək sistemini təhlil etmək üçün vacibdir. Uşaqların cavabı ailədəki rolu və digər ailə üzvlərinə münasibətini əks etdirir.

• Əgər kinoya iki biletiniz varsa, kiminlə getmək istərdiniz?

— Uşaqların bu suala verdiyi cavab, onun ailədə ən yaxın gördüyü insanı və həmin şəxslə qurduğu emosional əlaqənin dərinliyini göstərir.

• Təsəvvür edin ki, kimsəsiz adaya getmək imkanınız var. Kimi özünüzlə aparardınız?

— Uşaqların seçimləri emosional yaxınlıq və ailə üzvləri ilə qarşılıqlı əlaqələrinin prioritetlərini üzə çıxarır.

Valideynlərin uşaqlarla münasibətləri psixoloji, davranış və emosional aspektlər üzrə təhlil edilmişdir. Bu münasibətlər valideynlərin uşaqlarına qarşı göstərdiyi dəstək, sevgi, qayğı və intizamla bağlı müxtəlif səviyyələri əhatə edir. Sorğu-anketlər vasitəsilə valideynlərin uşaqlara münasibətləri sistemli şəkildə qiymətləndirilmişdir

Tədqiqat zamanı uşaqlarla "Ailə Rəsmi" testi keçirilmiş, onlara rəsmin çəkilməsi üçün əsas göstərişlər verildikdən sonra böyük həvəslə işləməyə başlamışlar. Test icra edilərkən uşaqların istifadə etdiyi rənglər, kompozisiya və ailə üzvlərinin rəsmdə yerləşdirilməsi kimi elementlər, onların ailədaxili münasibətləri və emosional vəziyyətlərini əks etdirmişdir. Test zamanı uşaqların verdiyi suallar, onların seçimlərindəki tərəddüdləri və ailə üzvlərinə olan bağlılığını ortaya qoymuşdur.

Məsələn, "Hansı rənglərdən istifadə edə bilərəm?" və "Qələm və ya flomasterlə çəkmək daha yaxşıdır?" kimi suallar onların şəxsi qərar qəbuletmə prosesləri və emosional vəziyyətləri haqqında əlavə məlumat əldə etməyə imkan yaratmışdır.

Test tamamlandıqdan sonra uşaqlara verilən əlavə sualların cavablarının təhlili nəticəsində aşağıdakı statistik məlumatlar əldə edilmişdir:

- Analar: 32,0%
- Atalar: 23%
- Bacılar və qardaşlar: 19%
- Nənə və babalar: 8%
- Dayılar: 1,2%

Nəticələr göstərmişdir ki, uşaqlar adətən evdə ən çox qarşılıqlı əlaqədə olduqları və müsbət emosional dəstək aldıqları ailə üzvlərini seçirlər. Anaların ən yüksək göstərici ilə (32,0%) seçilməsi, onların uşaqlar üçün əsas emosional dəstək və qayğı mənbəyi olduğunu təsdiqləyir. Bu, anaların uşaqların həyatında mərkəzi və əvəzolunmaz rol oynadığını nümayiş etdirir.

Ataların seçilmə göstəricisinin (23%) yüksək olması, onların da ailə daxilində əhəmiyyətli yer tutduğunu, lakin emosional dəstək baxımından analara nisbətən ikinci dərəcədə olduğunu göstərir.

Bacılar və qardaşların (19%) seçilməsi, uşaqların həmyaşıdları ilə əlaqələrinin güclü olduğunu və bu münasibətlərin onların emosional və sosial inkişafında mühüm yer tutduğunu göstərir.

Nənə və babaların (8%) seçilməsi, onların ailənin sabitliyinə, ənənəvi dəyərlərin ötürülməsinə və xüsusi vəziyyətlərdə emosional dəstək göstərmələrinə dəlalət edir. Bununla belə, onların

uşaqların gündəlik həyatında daha az iştirak etdikləri müəyyən edilmişdir.

Dayıların ən aşağı göstərici ilə (1,2%) seçilməsi, onların uşaqların emosional həyatında daha kənar və köməkçi rol oynadıqlarını göstərir.

Bu nəticələr ailə üzvlərinin emosional rifahı və xarakter formalaşmasında müxtəlif dərəcədə təsirə malik olduğunu ortaya qoymuşdur. Tədqiqat, xüsusilə anaların və ataların uşaqların həyatında əsas emosional dəstək mənbəyi olaraq mühüm rol oynadıqlarını vurğulamışdır.

Uşaqların verdiyi cavabların analizi göstərir ki, onların seçimi əsasən ailə üzvləri ilə emosional bağlılığından və bu əlaqələrin gücündən asılıdır. Bu nəticələr ailədaxili münasibətlərin uşaqların psixoloji inkişafına necə təsir etdiyini və xarakterlərinin formalaşmasında hansı ailə üzvlərinin daha çox rol oynadığını üzə çıxarır. Bu nəticələr həmçinin tədqiqatın aktuallığını və praktiki əhəmiyyətini artırır, çünki onlar gələcəkdə uşaqların psixoloji və emosional rifahını yaxşılaşdırmaq üçün konkret addımlar atmağa imkan verir.

**Problemin aktuallığı.** Uşaqların valideynləri və məktəb mühiti ilə münasibətləri onların emosional və psixoloji inkişafı üçün çox əhəmiyyətlidir. Bu tədqiqat, ailədaxili münasibətlərin və məktəbin uşaqların xarakterinin formalaşmasında oynadığı rolu müəyyənləşdirmək məqsədini daşıyır.

**Problemin elmi yeniliyi.** Aparılan bu araşdırmanın yeniliyi, məktəb mühitində xarakterlərin formalaşma prosesinin spesifik və ətraflı izahında, həmçinin əldə olunan nəticələrin xarakter formalaşmasında iştirakçıların – müəllimlərin, valideynlərin və həmyaşıdların – rolunu müəyyənləşdirməkdə özünü göstərir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Bu əldə olunan biliklər, gələcəkdə təhsilin inkişafı və təkmilləşdirilməsi üçün tədqiqatçılar, müəllimlər və məktəb rəhbərliyi üçün istinad kimi faydalı ola bilər.

**Ədəbiyyat**

1. Nəsrullayev M.Ə. Məktəblilərin fiziki tərbiyəsi: Dərs vəsaiti. Bakı, 2013, s. 62.

2. Nərimanov B.Ə., Əlyeva S.Ə., Nərimanov E.Ə. İdman gimnastikası. Bakı, “Müəllim” nəşriyyatı, 2014, s.112.

3. Qəhrəmanov A. “Ümumi orta təhsil səviyyəsinin yeni fənn kurikulumlarının tətbiqi üzrə” təlim materialı. Bakı, 2012, s. 54.

4. Mehrabov A.O. Müasir təhsilin metodoloji problemləri. Bakı: Mütərcim, 2012.

5. Məmmədov F.M., İmamverdiyeva N.B., Şıxəliyeva İ.V. Pedaqogika. 2 clddə Nəzəri, əyləncəli pedaqogika. Bakı: Sabah, 2015.

6. Allahverdiyeva F.M., Tağıyeva S.S. Pedaqogika: Dərs vəsaiti. Bakı: Elm və təhsil, 2018, 408 s.

7. Zamanova M., Təhsildə keyfiyyətin sistemli idarə edilməsi. Bakı: Elm və təhsil. 2017.

8. Джафаров С.Н., Социальные педагогические и психологические возможности образования в формировании системы отношений. Актуальные Научные Исследования в современном мире. Выпуск 3 (23), Часть 1, 2017.

9. Richard E. Mayer, Patricia A. Alexander, Routledge, “The School Environment and Student Behavior”, 2014, 320 p.

**М.Ч. Аскерова**

**Влияние школьной среды на формирование характера у учеников начальных классов**
**Резюме**

В этой статье рассматривается роль школьной среды в формировании характера учеников начальных классов. Подчеркивается, что наряду с семейным воспитанием, школьная среда играет важную роль в развитии характера. Это исследование создает основу для будущих работ, направленных на более глубокое изучение влияния школьной среды на учеников.

**M.Ch. Askerova**

**The impact of the school environment on the formation of character in primary school students**
**Summary**

This article explores the role of the school environment in shaping the character of primary school students. It emphasizes that, alongside family upbringing, the school environment plays a crucial role in character development. This research lays the foundation for future studies to delve deeper into the impact of the school environment on students.

**Redaksiyaya daxil olub:** 28.10.2024